# Azərbaycanın xarici işlər naziri Holokost qurbanlarının xatirəsinə ucaldılmış memorial kompleksi ziyarət edib




**Martın 29-da İsrail Dövlətinə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Holokost qurbanlarının xatirəsinə ucaldılmış Yad Vaşem memorial kompleksini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, ziyarəti zamanı nazir Ceyhun Bayramov Holokost qurbanlarına həsr olunmuş abidənin önünə əklil qoyub.

Ceyhun Bayramov 1953-cü ildən fəaliyyət göstərən memorial kompleksdə, həmçinin Holokost qurbanlarının sənədləri və fotoşəkillərinin sərgiləndiyi muzey və memorialın tədris mərkəzi ilə tanış olub, daha sonra kompleksin xatirə kitabını imzalayıb.

Ziyarət zamanı kompleksin rəhbəri Dani Dayan Azərbaycan nümayəndə heyətinin üzvlərinə memorial kompleks barədə məlumat verib.




Azərbaycan. - 2023.- 30 mart.- S.5.